# Nitqi-mənzum

**ABBAS SƏHHƏT**
**1912**

Qardaş, gözün aç, bircə oyan, gör nə zəmandır,
Dünya üzü elm ilə bu gün rəşki-cənandır.
Afaqı işıqlatmış iyirminci qərinə,
Məğriblilərin yer üzünə hökmü rəvandır.
Bəsdir bu qədər qəflət ilə yatdın, əzizim,
Allahı sevərsən, bir ayıl, yatma, oyan, dur!
Diqqətlə öz əhvalına bir dəm nəzər eylə,
Billah, bu qədər qəflətin əncamı yamandır.
Din getdi, vətən getdi, dəyanət unuduldu,
İslamdan ancaq quru ad virdi-zəbandır.
İslama yaraşmaz bu qədər iczü-rəzalət,
Bica yerə islam adını qoyma, yalandır.
İslam olanın elmü kəmalı gərək olsun,
Əslafımızın şöhrəti məşhuri-cəhandır.
Türk oğlu, müsəlman balası cahil olarmı?
Billah, belə eybi daşımaq xeyli girandır.
Elm ilə, şücaətlə gərəkdir yaşayaq biz,
Fitrət dəyişir, sanma bu qan yenə o qandır.
Quran buyurubdur bizə alim gərək olmaq,
Zənn etmə ki, şair sözüdür, bəlkə yalandır.
Qanuni-həyatdır: yaşamaz cahil olan qövm,
Səy eylə oxu, qeyrət elə, qardaş, amandır!..



**rəşki-cənan** - *qibtə edilən Cənnət*
**afaq** - *dünya*
**virdi-zəban** - *dil əzbəri*
**iczü-rəzalət** - *acizlik*
**əslaf** - *sələflər*
**giran** - *ağır*